# Azərbaycanın Rus İcmasının Respublika Şurasının Azərbaycan Respublikası Prezidenti seçkiləri ilə bağlı müraciəti

**Azərbaycanın Rus İcmasının Respublika Şurası Azərbaycan Respublikası Prezidenti seçkiləri ilə bağlı müraciət yayıb.**

AZƏRTAC xəbər verir ki, müraciətdə deyilir:

"Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əlirza oğlu Əliyevin anadan olmasının 100 illiyini qeyd edərkən, biz onun Azərbaycan xalqına xidmətə, ölkənin suverenliyinin və müstəqilliyinin möhkəmləndirilməsinə istiqamətlənmiş böyük vətənpərvərliyini və cəsarətini, həmçinin iqtisadi cəhətdən inkişaf edən dövlətin bünövrəsini qoymuş səylərini minnətdarlıq hissi ilə xatırlayırıq.

Azərbaycan xalqı ərazilərinin 30 ildən çox qonşu Ermənistanın işğalı altında qalmasının yaratdığı bütün çətinlikləri şərəf və ləyaqətlə aşa bildi. Azərbaycanın müxtəlif millətlərdən olan qəhrəman oğulları çoxdan gözlənilən sülhün bərqərar olması, Vətənin tərəqqisi və gələcək nəsillərin əmin-amanlığı uğrunda canlarını fəda etdilər. Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevin ətrafında sıx birləşən igid əsgərlərimiz doğulduqları və boya-başa çatdıqları, sevgi hissi bəslədikləri ölkənin əsl vətənpərvərləri kimi, Azərbaycanın suverenliyi və ərazi bütövlüyünün müdafiəsi üçün bütün imkanlarından istifadə etdilər.

Azərbaycan xalqı bütün bu illər ərzində özünün haqq işinə, ədalət və müstəqilliyə, öz qələbəsinə və sülhə inanıb. Bu Zəfər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə qazanıldı. Azərbaycan Ordusunun rəşadətli hərbçiləri hamımıza aydın səma bəxş etdilər.

Qarabağımız çoxillik erməni işğalından azad edildi. Bir vaxtlar öz evlərindən didərgin salınmış yüzlərlə ailə indi artıq keçmiş məcburi köçkünlərin qayıdışına dair məqsədyönlü dövlət proqramı sayəsində öz doğma yerlərinə, rahat evlərinə qayıdırlar.

Azərbaycanın beynəlxalq arenada nüfuzu ildən-ilə möhkəmlənir. Regionun inkişafına dair genişmiqyaslı proqramlar Azərbaycanın beynəlxalq ictimaiyyət arasında rolunun daha çox artmasına heç bir şübhə yeri qoymur. Azərbaycan Prezidentinin sülhün və mehriban qonşuluğun möhkəmləndirilməsi məsələlərində qətiyyətli mövqeyi ölkənin xalqı tərəfindən hörmət və dəstəklə qarşılanır.

Rus İcmasının üzvləri Yeni Azərbaycan Partiyasının 2024-cü il fevralın 7-də keçiriləcək seçkilərdə İlham Heydər oğlu Əliyevin bu partiyadan prezidentliyə namizədliyini irəli sürməsini dərin məmnunluq hissi ilə qarşılayıblar. Əminik ki, Rus İcmasının üzvləri bundan sonra da Prezidentimizi, onun sülhün möhkəmlənməsi, çoxmillətli cəmiyyətdə dostluq və qardaşlığın qorunub saxlanılması, ölkənin Silahlı Qüvvələrinin gələcək inkişafı və güclənməsi istiqamətində məqsədyönlü, dəyişməz mövqeyini dəstəkləyəcək və Vətənimizin işıqlı gələcəyi naminə öz səslərini İlham Heydər oğlu Əliyevə verəcəklər".

Azərbaycan.- 2023.- 28 dekabr (№ 285).- S.11.